Bayraq edib əlində
"Üsyan!" deyə bağıran
İnqilabçı şairin
İnqilabçı ustadı!
Kim tanımır bu adı?
– Nazim öldü! – dedilər.
İnanmadım buna mən.
Keçdi bir ordu kimi
Gözlərimin önündən
Kommunist bir şairin
Kommunist misraları;
Hər kəlmənin qəlbində
Günəş, həyat, məhəbbət.
Dayanmayan bir yürüş!
Bəzən acı bir həsrət,
Bəzən dadlı bir görüş!..
Bəzən sınır kəlmələr
Bir dilbərin gözündə,
Bəzən dönüb bir oxa
Qayadan, daşdan keçir!
Onun ilham dəryası
Bu torpağın üzündə
Neçə eldən su içir!..
Hərdən şeir bənzəyir
Qərənfilə, nərgizə.
Dünya olur laləzar,
"Gəl, gəl!" söyləyir bizə.
Hərdən isə hər tini
Edib özünə səngər,
Alovlardan don geyib
Şer olur bir əsgər,
Hər söz barıt qoxuyur.
O, sonuncu düşmənə,
Bir son kəfən toxuyur!
Yox, yox! Susun, susun siz!
Ölərmi Nazim Hikmət?
Şairə nə ölüm var,
Nə də ki, istirahət!

*1963*





## GƏLDİ YAR...

*Həyat yoldaşım Zakiyyəyə*

Pəncərəmdə əsdi meh,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Onun nəfəsi,
Unutdunmu məni sən?
Günəş düşdü qapıma,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Nədir bu söhbət?
Mənəm, dostum, o qızın
Gözündəki parıltı,
Qəlbindəki hərarət.
Ağacda bülbül ötdü,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Onun səsiyəm.
Yolunu gözlədiyin
O qızın nəğməsiyəm.
Bağçada lalə açdı,
Dedi: – Şair, gəldi yar!
– Bəs, sən kimsən? – dedim mən.
Dedi: – Könül verdiyin
Gözəlin yanağıyam.
Bu evin qonağıyam!
Çıxdım çölə, gördüm ki,
Doğrudan da gəlib yar, –
Yox, yox! Təkcə yar deyil,
Evimə gəlmiş bahar!

*1955*

## BƏNÖVŞƏ

Bu gün səhər keçəndə bir meşənin içindən
Bir bənövşə dərdim mən.
Boynunu əydi yenə
Dedi bənövşə mənə:
– Oğlan, kimsən, nəçisən?
Qoydun gözəl lalәni,
Niyə dərdin məni sən?
Düzəltdim mən boynunu,
Sinəmə basdım onu.
Dedim: – Gözəl bənövşə!
Sən yaxşı bax üzümə,
Gəl qulaq as sözümə.
Sən, altında gəzdiyim
Göylər kimi qəşəngsən,
Bu göylərin altında
Bir gözəl qız sevdim mən!
– Axı bundan mənə nə?
– Dayan, deyim mən sənə,
– Onun adı – Bənövşə!
– Onun gözü – bənövşə,
Onun hər bir mahnısı,
Şirin sözü bənövşə!
İndi, onu gəzirəm...
Bax, sinəmdə bu dağa!
Uçdu göyərçin kimi
O qız getdi uzağa...
Bənövşə bir kədərlə
Qulaq asdı sözümə,
Tərpəndi asta-asta,
Baxdı mənim üzümə:
– Gedək, – dedi, a dostum!
Gəzək dağı, meşəni,
Haray salaq çöllərə,
Axtaraq bənövşəni!

*1956*



## MƏNƏ LAZIMDIR ANCAQ...

Biri dedi: – Şair, sən
dostları unutmusan,
Və şöhrətdən, dünyadan
Səkkiz əlli tutmusan...
Güldüm, dedim mən ona:
– Bunları verdim sana.
Mənə lazımdır ancaq:
Qızıl günəş,
qara torpaq;
Gülüş dolu
bir cüt göz;
Və bir kəlmə
şirin söz!

*1955*

## SƏNİN FOTOŞƏKİLİN

Məktubumda: "Gəl deyə sevgilim!"
yazdım sənə;
Sənsə, fotoşəklini göndərdin ancaq mənə.
*Uzun sürdü bu hicran,*
Asdım bu gün şəklini otağın baş ucundan...
Yaxanda bir yasəmən,
gülüşlərin yumuşaq.
Bəli, belə gülərdin
iki il bundan qabaq!
Saçların gecəm mənim,
baxışın ay işığı...
Uzaqda olsan belə,
Sənsən,
yenə, sevgilim,
evimin yaraşığı!..
Nə gözəldir, əzizim,

göndərdiyin bu surət!
Əfsus, onda duyulmur
qəlbindəki döyüntü,
əlindəki hərarət!

*1955*

## SƏN NƏ GÖZƏLSƏN

Yanağında:
suların, ulduzların gümüşü,
Dodağında:
mehriban körpələrin gülüşü,
Dedin:
– Mənə şeir yaz...
Qulaq asdım sözünə,
Baxdım qara gözünə.
Göllərimin sonası
Uşağımın anası
Sən
Nə gözəlsən!
Mən özəldən meylimi
Başqasına salmadım,
Başqasının sazında
Mən heç nəğmə çalmadım!
Mən sənin ürəyində
Duydum bir saf məhəbbət,
Sözlərində haqq gördüm;
Qollarında dəyanət!
Yox, sevməzdim mən səni,
Getdiyimiz axında
Olmasaydın hər zaman
Bizim aramızda sən;
Ən qorxulu,
Ən ağır
həyat döyüşlərində.



Getməsəydin qabaqda,
Olmasaydın bizimlə.
Bizim sıramızda sən!
Dedin: – Mənə şeir yaz...
Qulaq asdım sözünə,
Baxdım qara gözünə.
Göllərimin sonası,
Uşağımın anası,
Sən
Nə gözəlsən!
Dedin: – Mənə şeir yaz...
Tutdum bu gün əlindən,
Seyrə çıxdım yenə mən.
Bu sevimli şəhəri:
Sularda min bir işıq;
Küçələrdən, evlərdən
Göz vurdu, güldü bizə,
Nur tökdü üstümüzə.
Sənin, mənim
Və bizim əlimizlə yaranmış
Ən gözəl bir yaraşıq!..
Sən yoldaşsan,
Sən insansan,
Sən anasan;
Bizə qədər doğulmuş
Və indi də doğulan,
Hətta sabah doğulub
Bu dünyaya gələcək
Ən bəxtiyar
Ən qadir
İnsanların anası;
Hər vaxt sənsən, əzizim,
Yer üzünün mənası!
Ən böyük həqiqətsən,
Sən nemətlər yetirən
Ən şirin bir nemətsən!
Dedin: – Mənə şeir yaz...
Qulaq asdım sözünə,

Baxdım qara gözünə.
Göllərimin sonası,
Uşağımın anası,
Sən
Nə gözəlsən!

*1956*

* * *

Yorğunam, sevgilim,
yorğunam, yaman,
İstəməz nə həkim,
nə də ki, dərman!..
Gəl yanıma, danış bir,
Qulaq asım sözünə,
Baxım yenə üzünə.
Əy üstümdə, əzizim,
Əyilməyən belini,
Qoy başıma əlini...
Yorğunam, sevgilim,
yorğunam yaman,
İstəməz nə həkim,
nə də ki, dərman.
Yetər mənə, əzizim,
Əlinin hərarəti,
Bir insan məhəbbəti!

*1956*

## ƏLLƏRİN SƏNİN

Bir ağ göyərçin kimi ovcumun içində
Sıxılmışdır əllərin sənin!
Nə incə, nə qəşəngdir,
Sanki bir ağ çiçəkdir –
Əllərin sənin!
Gözlərimə qonanda ayrılığın kədəri –
Qəlbim sənsiz vurmayır;



Vüsalına yetəndə unuduram qəmləri,
Könlüm qərar tutaraq bir nöqtədə durmayır.
Ömrumə rövnəq verən
Bir həyatdır əllərin sənin!
Qonub çiyinlərimə
Məni göyə qaldıran
Bir qanaddır əllərin sənin!
Sən sevgilim,
Qadınım,
Kommunist yoldaşımsan;
Sən ən ağır günlərdə
Vəfalı sirdaşımsan!
Dünən,
Mən,
Alovlardan keçərkən
Mənimlə tüfəng tutdu
Döyüşdə
əllərin sənin!
Oldu mənə bir arxa,
Oldu mənə bir həmdəm
hər işdə əllərin sənin!
Əllər – zəhmət,
Əllər – dostluq,
Əllər – bir saf məhəbbət,
İnan, olacaqdır hər zaman
Mənimlə əllərin sənin!

*1951*

## AY İŞIĞINDA

Mən səni gördüm
ay işığında.
Könlümü verdim
ay işığında.
Tez gəldi hicran,
Ayrıldıq haman
ay işığında.

Qov bu möhnəti,
Dağıt zülməti
ay işığında.
Yenə gəl bizə,
Duraq üz-üzə
ay işığında.

*1955*

## MƏHƏBBƏT

İyul... isti bir axşam.
Partlayır, yanır ürək...
Bürkü –
Durmuş havada
Bir balıqcı toru tək.
Bax,
Hər gün mənə həmdəm olan bu otaq,
Yad görünür gözümə;
Yazmaq üçün mürəkkəb,
Qələm baxmır sözümə.
Elə bil ki, sinəmdə
Boğulub qalmış səsim,
Danışmağa, gülməyə
Yoxdur əsla həvəsim!
Böyük, ağır daş kimi
Sinəmə enmiş başım,
Başım ağrıyır, başım!
Bu gün mənim yoldaşım
Tək bu qərib axşamdır!
Lakin o da elə bil
Əzilmişdir mum kimi,
Qabağımda sallamış
Enli dodaqlarını
Bir qara meymun kimi!
Bu gün gəlmir evimdən uşaqların xoş səsi,
Bu gün gəzmir üzümdə Etibarın nəfəsi!



Bu gün yoxdur qadınım, –
Bu gün yoxdur sevgilim,
Elə bil sınmış belim!
Gah çıxıram eyvana,
Gah girirəm içəri,
Gah taybatay açıram
Pəncərələri, yenə
Kömək etməyir mənə;
Başım ağrıyır, başım!
Bəlkə yorğunam deyə,
Toplayaraq huşumu gedirəm düşüncəyə
– Nə etdim?
Nə yazdım mən?
Bu gün uzaq düşmüşəm
Sevgilimdən, qələmdən!..
Elə bu vaxt, bu zaman
Qapı zəngi çalındı
Gəldi əziz sevgilim.
Üzü gülər, mehriban.
Gözümə işıq verdi
Gözlərinin işığı;
Qoluma qüvvət verdi
Hər sözü, danışığı.
Gəzdi qara saçımda,
Kiçik, sərin əlləri;
Elə bil gəldi cana
Ürəyimin telləri.
Sevincimi od edib,
mən od vurdum hər qəmə;
Sarılaraq qələmə!
Bürkü –
Bir anda parçalandı;
Ətalət qorxusundan
Alışıb, həmən yandı!..
Nə yamanmış insan olub
İnsanlarla olmamaq!
Nə yamanmış şair olub
Ələ qələm almamaq!
Yaşa insan nəfəsi!

Yaşa insan qüvvəti!
Yaşa mənim ilhamım –
Ey insan məhəbbəti!

*1952*

## ÜRƏK

Deyirlər: uçsa ürək, qopsa candan,
ölər insan.
Yalandır, qıpqırmızı yalandır bu!
Sevənlərin ürəkdən olmamışdır qorxusu!
Neçə ildir, quş kimi qəlbim uçub sinəmdən –
ölməmişəm niyə mən?
Neçə ildir, kənarda – uzaqlarda durur o;
həsrətilə yandığım,
Gecə-gündüz andığım
İlk sevdiyim bir qızın yollarında vurur o!
Vur, ey qəlbim!
Dur, ey qəlbim!
Daim o yar sorağında,
Ta ki, gülsün məhəbbətim
sevgilimin dodağında.

*1954*

## UZAQDA SANMA MƏNİ...

Gecə səhrada azsan,
Əgər getdiyin yolu,
Hər tərəf olsa zülmət,
Uzaqda sanma məni.
Qəlbimdə ilk məhəbbət
Bil ki, dönüb bir quşa,
Yanına qonaram mən!
Ya da bir ulduz olub
Parçalayıb zülməti
Yolunda yanaram mən!
Əgər bürküyə düşsən, –



Tapmasan bir udum su,
Uzaqda sanma məni
Qoyma gəlsin yaxına
Tənhalığın qorxusu.
Buludları dağıdıb
Göydə ildırım kimi
Üstündə çaxaram mən!
Olub bir dağ yağışı
Qəlbinə axaram mən!..
Əgər cəbhəyə getsəm, –
Pozaraq dəstəmizi,
Döyüşdə pərən-pərən
Salarsa düşmən bizi,
Yıxılsam igidliklə
Sinəmdə bir laxta qan,
Uzaqda sanma məni!
Bil ki, qan deyil axan.
Eşqimdir, alovlanır.
Səndən ayrı düşəli
Sinəm od tutub yanır!
İşdir, qalxmasam ölsəm,
(Kim ölməyir dünyada?)
Uzaqda sanma məni!
Gömülsəm də məzara.
Düşmənlərin önündə
Başına örtüb qara,
Uzaqda sanma məni!
Gözəl məxluqdur insan!
Məhəbbətə, əzizim,
Nə məkan var, nə zaman.
Uzaqda sanma məni!
Bir gün məni axtarsan –
Görsən də, görməsən də,
Bil ki, qərar tutmuşuq
Sən məndə,
Mən də səndə...
Uzaqda sanma məni!

*1954*

## MƏN SƏNİ AXTARDIM

Mən səni ulduzların
İşığında axtardım,
Sevgilim, yarım mənim!
Qarışıb şimşəklərə,
Dağda dumanı yardım,
Al günəşdə, göy suda
Daim səni axtardım,
Sevgilim, yarım mənim!
Küləklərə qoşulub
Dolaşdım səhraları,
Dolaşdım səhər erkən,
Dolaşdım gecəyarı.
Sadiq qalıb sevgidə
İlqara, sədaqətə,
Dözdüm hər məşəqqətə,
Sevgilim, yarım mənim!
Sünbüllərə baxdım mən
Baxdım yolda çinara
Aranda qızılgülə,
Yaylaqda baxdım qara.
Hardan gəldi sorağın,
Atımı çapdım ora,
Sevgilim, yarım mənim!..
Bənövşəni dindirdim,
Dindirdim nərgizi mən:
Dostum oldu şəlalə,
Dostum oldu göy çəmən.
Hər ümmanda, hər göldə
Səni gəzdim, axtardım,
Sənin arxanca vardım.
Sevgilim, yarım mənim!..
Yox, yox! Axtardım səni, –
Gəzdim insan içində
Gəzmədim başqa yerdə.
Gördüm səni nəşədə,
Gördüm səni kədərdə,



Sevgilim, yarım mənim!
İnsandakı etibar
Yer üzündə kimdə var,
Sevgilim, yarım mənim?!..
Çəkməsək heç bir cəfa,
Axtarmasaq yarı biz,
Gəzməsək məhəbbəti,
Yaşamağın dünyada
Olmaz əsla ləzzəti,
Sevgilim, yarım mənim!

*1964*

## ƏLİM ƏLİNƏ DƏYDİ

Əlim əlinə dəydi:
Gözümdə güldü çəmən,
Qəlbimdə açdı lalə,
Hər şeydə səni gördüm:
– Nə xoşbəxtəm! – dedim mən.
Bu söhbət düşdü dilə...
Əlim əlinə dəydi:
Ətir saçdı kainat –
İnsan ətri,
Gül ətri,
Sənin ətrin, əzizim
Gözəlləşdi bu həyat, –
Torpaş geniş!.. Göy uca!..
Dünya deyilmi bizim?
Əlim əlinə dəydi:
Qoluma gəldi qüvvət,
Günəş könlümdə yandı!
Yaşardımmı söylə mən
Olmasaydın əgər sən,
Olmasaydı məhəbbət.

*1963*

# Miniatürlər

* * *

Ağac sallayaraq budaqlarını,
İnsana "Al!" dedi, tökdü yükünü.
Sonra da düzəldib o, vüqarını
Gözlədi baharı, günəşli günü.

Şairin yaradıb, yazdıqca hər an
Başında fikirlər sanki ümmandır.
Üzündə iztirab, qəlbində tufan,
Ümidi, dayağı ancaq zamandır!..

*1971*

* * *

– Yaman yağış yağır! – Söylədi çoban –
Çıxara bilmədim malı örüşə!..
– Yaman yağış yağır! – dedi bir oğlan –
Qoy yağsın... Gedirəm qızla görüşə!

*1971*

* * *

Min il məhkum olsa –
Gülər səadət!
Min il hakim olsa –
Ölər fəlakət!

*1972*

* * *

Sünbül dənə dolub əydi başını,
Səhərin mehində baxdı torpağa:
Elə bil o gördü can sirdaşını,
O, torpaq qoynunda qalxmış ayağa!..



Əgər qarşılıqlı olsa məhəbbət,
Ürək fərəh tapıb güləcək əlbət!..

*1973*

* * *

– Gözünü zilləyib o göylərə sən,
De, orda nə məna, nə sirr gəzirsən?
Bir şey tapmısanmı?
Gəl, bunu unut,
Başqa bir peşədən, başqa işdən tut!..

Beyni boş, qəlbi boş olarsa bir kəs,
Heç nədə bir məna kəşf edə bilməz!..

*1972*

* * *

Günəşdən soruşdum: – Nədəndir, müdam
Yanırsan tükənməz bir hərarətlə?
– Belə yanmağıma inanın, şadam,
Yanıram əbədi saf məhəbbətlə –
Qoy insan şad olsun, qoy gülsün aləm,
Bu dünya görməsin nə zülmət, nə qəm!

*1967*

* * *

Xəyanət – gözü kor, qulağı da kar,
Dayanıb mal kimi baxır üzünə...
Ömründə olmamış bir gün bəxtiyar,
Özü məzar qazır daim özünə.

O tülkü mərdlikdən danışır mudam,
Mərdlik görməmişdir onda bir adam!..

*1968*

* * *

– Yenə fikirlisən? Yenə qüssə, qəm?
Heç kimə qalmayıb, inan, bu aləm!
– Bu günü, sabahı düşünməsən, sən
Sevinc də, kədər də, nədir, bilməzsən!